**Neft mədənlərində parafin və duzçökmə prosesləri və ona qarşı mübarizə üsulları**

Fənn: Neft mədənlərində parafin və duzçökməyə qarşı mübarizə üsulları
Səviyyə: Baza, ümumi əsaslar
Müddət: 5 gün
Təlimatçı: t.e.d., a.e.i. Ataməli Səmədov

Bu intensiv beş günlük baza kursları neft mədənlərində parafin və duzçökmə prosesləri və ona qarşı mübarizə üsullarının əsaslarını özündə cəmləyir.

Tədris edilən mövzularda yataqlarda baş verən parafin və duzçökmə prosesləri, onların əmələgəlmə səbəbləri, parafin və duzçökmə proseslərinə qarşı mövcud mübarizə üsullarının aprılması sahələrində görüləcək işlər kursu əhatə edir. Kursun iştirakçıları zəruri bilikləri və ümumi əsasları öyrənəcək, sonda isə elmi-tədqiqat laboratoriyasında aparılan təcrübələrlə əyani tanış olacaqlar.

**Nəzərdə tutulur :**
Bu sahədə çalışan mühəndislər, operatorlar və laborantlar üçün nəzərdə tutulur.

**Öyrəniləcək material:**
- Neftçıxarmada baş verən parafin və duzçökmələri:
- Quyudibi zonada;
- Istismar kolonunda;
- Elektrik mərkəzdənqaçma nasoslarının çarxlarındakı səthlərdə nasos compressor borularında və yerüstü kommunikasiyalarında.

**Parafin və duzçökmələrə qarşı tətbiq olunan üsullar:**
- Inhibitorlaşdırma metodları
- Inhibitorların fasiləsiz olaraq dozalaşdırıcı qurğularda vurulması;
- Fasiləli dozalama üsulu ilə;
- Inhibitorun laya ötürülməsi ilə vurulması;
- Inhibitorun ağırlaşdırıcı məhlula əlavə edilərək vurulması üsulu;
- Inhibitorun ayrıldıqda vurucu quyulara dozalanması üsulu;
- Inhibitor kompressor-nasos stansiyası ilə qrup halında vurucu quyulara dozalama üsulu ilə vurulması.

Parafin və duz çöküntülərinin (əmələ gələn) aradan qaldırılması üsulları:
- Nasos avadanlıqlarından parafin və duz çöküntülərinin təmizlənməsi
- Quyu kəmərindən parafin və duz çöküntülərinin təmizlənməsi
- Xüsusiləşdirilmiş dərin elektrik mərkəzdən qaçma nasoslarının işçi səthlərində çökmüş parafin və duz kristallarının təmizlənməsi

**Kursun tərkibi:**

- Neftçıxarmada baş verən parafin və duzçökmə prosesləri
- Neftin nəqlində və ilkin mədən hazırlığında yaranan parafin və duzçökmə prosesləri
- Parafin və duzçökmələrə qarşı tətbiq olunan inhibitorlar və həllediciləri təsnifatı
- Yeni nəsil parafin və duzçökmə inhibitorlarının işlənib hazırlanması
- Parafin və duzçökmə inhibitorların laboratoriya şəraitində hazırlanması üçün müasir test üsulları

**Tədrisi aparan təlimatçı haqqında:**

Ataməli Məcid oğlu Səmədov 1984-cü ildə Moskva Kimya Texnologiya institutunu bitirmişdir.

1984-1990-cı illərdə “Dənizneftqaz” ETLİ-da “Korroziyadan mühafizə” şöbəsində mühəndis, böyük mühəndis və elmi işçi vəzifələrində işləmişdir.

1991-2009-cu illərdə Y.Məmmədəliyev adına Neft-Kimya institutda “Korroziya inhibitorları” laboratoriyasında böyük elmi işçi; qrup rəhbəri, vəzifələrində işləmişdir.

1992-ci ildə namizədlik dissertasiyasını, 2006-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Texnika elmləri doktorudur.

Səmədov A.M. 80-a yaxın elmi əsərin, 30-a yaxın patentin həmmüəllifidir. Əsas elmi fəaliyyəti neftmədən kimyası sahəsində tətbiq olunan inhibitorların, parafinçökmə və duzçökmələrə qarşı reagentlərin işlənib hazırlanmasına və mədənlərdə tətbiqinə həsr edilmişdir. Hal-hazırda “Parafin və duz çöküntülərinə qarşı mübarizə” laboratoriyasında aparıcı elmi işçi vəsifəsində çalışır.

**Kursun keçirilmə yeri:**

“Neftqazelmitədqiqatlayihə” institutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha dərin kurslar təşkil oluna bilər

Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (994 12) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:
“Neftqazelmitədqiqatlayihə” İnstitutu
AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr.88a